






Avqustun 9-da Türkiyənin Konya şəhərində idmanın birləşdirici gücü ilə həmrəyliyi inkişaf etdirməyi qarşısına məqsəd qoyan V İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi və liderlərin səmimi görüşləri bir daha dünyaya islam dövlətlərinin birliyini nümayiş etdirdi. İslam dövlətlərini bir-birinə daha da yaxınlaşdıran, birləşdirən, mehribanlaşdıran həmrəylik oyunları əsl bayrama çevrildi.

# İslamiada ZƏFƏRİ

## Azərbaycan idman ölkəsi olduğunu bir daha təsdiqlədi



### Qalib ölkənin idmançılarını qələbəyə ruhlandıran görüş

Öncə onu xatırladaq ki, hər zaman idmançılarımızın himayədarı olan Prezident İlham Əliyev bu oyunlar zamanı da ənənəsinə sadiq qaldı. Dövlət başçısı və birinci xanım Mehriban Əliyeva yarışların açılış mərasimində iştirak etmək üçün Türkiyəyə səfər etdikləri zaman ilk olaraq ölkəmizi təmsil edən idmançılarla səmimi görüş keçirdilər.

Bu görüş Azərbaycan idmançıları üçün bir stimul oldu. Prezident söhbət zamanı əmin olduğunu bildirdi ki, hər zaman olduğu kimi, bu turnirdə də Azərbaycan idmançıları ölkəmizi ləyaqətlə təmsil edəcəklər. Artıq bizim idmançılar bütün beynəlxalq yarışlarda öz gücünü təsdiqləyiblər: "Azərbaycan bu gün dünyada güclü idman ölkəsi kimi tanınır və bizim qələbələrimiz həm Olimpiya Oyunlarında, həm də dünya, Avropa çempionatlarında artıq adi hala çevrilib. Azərbaycan azarkeşləri də bir növ buna öyrəşiblər. Əminəm ki, idmançılarımız bu dəfə də gözəl nəticə göstərəcəklər".

İlham Əliyev həm də Vətən müharibəsindəki zəfərimizdən söz açaraq idmançılarımızı qələbələrə ruhlandırdı. Prezident qeyd etdi ki, ilk dəfə olaraq Azərbaycan idmançıları İslam Həmrəyliyi Oyunlarında qalib ölkəni təmsil edəcəklər. Bu, hamımız üçün böyük qürurverici hadisədir: "Çünki biz artıq müzəffər xalqın nümayəndələri, qalib ölkənin nümayəndələri kimi bu oyunlarda iştirak edəcəyik. Döyüş meydanlarında əldə edilmiş qələbə idman yarışlarında da özünü əks etdirəcək. Bir sözlə, əziz idmançılar, mən sizi ürəkdən salamlayıram, sizə uğurlar arzulamaq istəyirəm. Əminəm ki, hər zaman olduğu kimi, Azərbaycanın idman bayrağı, idman şöhrətimiz yüksəklərdə olacaq və siz Vətənə qələbələr, müvəffəqiyyətlər, uğurlarla qayıdacaqsınız".

Yarışların gedişatı, Azərbaycan atletlərinin uğurlu çıxışları da onu göstərdi ki, Prezidentin qürur dolu çıxışı idmançılarımızda həqiqətən də böyük ruh yaradıb. Oyunlarda inamla çıxış edən atletlərimizin nailiyyətləri idman tariximizə qızıl hərflərlə yazılıb.

### Niyə məhz Konya?

V İslam Həmrəyliyi Oyunlarının Konyada keçirilməsi isə təsadüfi deyildi. Qədim tarixi olan Konya şəhəri həm də islam sivilizasiyasının mühüm mərkəzlərindən sayılır. Böyük təsəvvüf şairlərindən olan Cəlaləddin Ruminin türbəsi zahidlər üçün ziyarətgahdır. Ümumiyyətlə, Konya müxtəlif mədəniyyətlərin bir araya gəldiyi harmonik ruha sahibdir. Əsas qayəsi Cəlaləddin Ruminin "Biz birləşdirməyə gəldik, ayırmağa gəlmədik" olan açılış mərasimi maraqlı kompozisiyaların təqdimatı ilə keçdi. "Salam olsun!" kompozisiyası ilə Türkiyədən bütün islam dünyasına salam göndərildi. "Həmrəyliyin gücü" kompozisiyasının əsas məğzi isə odur ki, islam dünyası bir-biri ilə qovuşur, birlik olur. Dünya müsəlmanları həmrəyliyin gücü ilə birləşir. Bu, islam dünyasının dəyərlər düşüncəsi ilə birləşməsinin və həmrəyliyinin göstəricisidir. "Elmin gücü" kompozisiyasında islam dünyasının qızıl dövrü tərənnüm edilir. Bu hissədə dünya qaranlıq dövrünü yaşadığı bir zamanda islam alimlərinin bütün insanlığa bu günümüzə qədər gəlib çatan bəşəri irs qoymaları təbliğ olunur. "Hikmətin gücü" kompozisiyasında böyük bir mədəniyyətin paytaxtı, elmin və hikmətin diyarı, könüllərin görüş yeri olan Konyanın miras qalan əsərləri təqdim olunur, bu qədim şəhərin tarixinə səyahət edilir. "Könüllər şəhəri: Konya" kompozisiyasında isə islam aləminin müdriklərinin uzun illər elm və hikmət axtarışlarından sonra Konyaya üz tutmaları və bu şəhərdə islam mədəniyyətinin ən nadir incilərini yaratdıqları tərənnüm olunur. "Eşqin gücü" kompozisiyasında bu gözəl diyarda kök salan hikmətli düşüncələrin öz bəhrəsini verdiyi, bu hikmətin və sevginin Konyanı "Könüllər şəhəri"nə çevirdiyi təbliğ edilir.

Açılış mərasimində iştirak edən dövlət, hökumət və nümayəndə heyətləri başçılarının şərəfinə verilən şam yeməyi zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirdi: "İslam Həmrəyliyi Oyunlarının sonuncusunu əziz qardaşım İlham Əliyevin və hörmətli birinci xanım Mehriban Əliyevanın evsahibliyi ilə 2017-ci ildə Azərbaycanda keçirmişdik. Azərbaycanlı qardaşlarım hər baxımdan uğurlu evsahibliyinə imza atmışdır".

### Azərbaycan idmançılarının islamiada tarixi

Azərbaycan ilk dəfə 2005-ci ildə Səudiyyə Ərəbistanının Məkkə, Mədinə və Ciddə şəhərlərində İslam Həmrəyliyi Oyunlarına qatılıb. I İslam Həmrəyliyi Oyunlarında idmançılarımız 4 qızıl, 4 gümüş və 7 bürünc medal qazanıblar. II İslam Həmrəyliyi Oyunları 2009-cu ildə İranda keçirilməli idi. Amma Tehranla ərəb ölkələri arasında yaranmış mübahisə ucbatından İslamiada bu ölkədə baş tutmayıb.

2013-cü ildə isə İndoneziyanın Palembanq şəhərində III İslam Həmrəyliyi Oyunlarında Azərbaycan 53 idmançı ilə 8 idman növündə təmsil olunub. Azərbaycan idmançıları vətənə 24 medalla (7 qızıl, 8 gümüş və 9 bürünc) qayıdıblar. Qızıl medalları karateçilər Rəfael Ağayev, Ayxan Mamayev, yüngül atletlər Hayle İbrahimov, Yekaterina Sarıyeva, üzgüçü Boris Kirilov, həmçinin Rəfael Ağayev, Ayxan Mamayev, Niyazi Əliyev və Şahin Atamovdan ibarət Azərbaycan karate yığması qazanıblar. Azərbaycan medal sıralanmasında 41 ölkə arasında 8-ci yeri tutub.

IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi bu möhtəşəm idman tədbirinə yeni nəfəs verdi. Prezident İlham Əliyev 2017-ci ili ölkəmizdə "İslam Həmrəyliyi ili" elan etmişdi. Bu da əlbəttə ki, islam dövlətləri tərəfindən razılıqla qarşılanmış və geniş əks-səda doğurmuşdu. Həmin il mayın 12-22-də Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunları Prezident İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident və oyunların Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın fəaliyyəti sayəsində bütün dünyaya nümayiş etdirdi ki, islam aləmi bir ola bilir və bu birlik gücümüzü daha da artırır.

"Bakı-2017"də 54 ölkədən 3 mindən çox atlet idmanın 24 növü üzrə keçirilən yarışlarda 269 dəst medal uğrunda mübarizə apardı. Bu oyunlara 425 atletlə qatılan Azərbaycan 162 medalla (75 qızıl, 50 gümüş və 37 bürünc) birinci oldu. Türkiyə ikinci (195 medal), İran üçüncü (98 medal), Özbəkistan dördüncü (63 medal), Bəhreyn (21 medal) isə beşinci yerdə qərarlaşdı.

### Bakının nümunəvi evsahibliyi dünya üçün örnək oldu

Azərbaycan islam dünyasını birləşdirmək, ona qarşı yönəlmiş qəsdləri zərərsizləşdirmək və bütövlükdə özünü dünyaya sülh, əmin-amanlıq carçısı olan ölkə kimi təqdim etmək imkanlarını bir daha ortaya qoydu.

Üzərinə götürdüyü daha bir ali missiyanı adına layiq uğurla yekunlaşdıran ölkəmiz həm də dünyaya sülh mesajı verdi. Odlar yurdu bu oyunlarla bir çox ilklərə imza atdı. Azərbaycan həm I Avropa Oyunlarına, həm də İslam Həmrəyliyi Oyunlarına evsahibliyi edən yeganə islam dövləti oldu. 2015-ci ildə I Avropa Oyunları çərçivəsində bütün Avropa qitəsini bir araya gətirərək tarix yazan Azərbaycan bu dəfə dörd qitənin islam ölkələrinin insanlarını Bakıda birləşdirdi. Azərbaycan həm də islam həmrəyliyinin ideya və real fəaliyyət mərkəzinə çevrildiyini bir daha təsdiqlədi. Birinci vitse-prezident, "Bakı-2017" İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın söylədiyi kimi, İslam Həmrəyliyi Oyunları Azərbaycanın dinamik inkişafında yeni parlaq səhifə açdı və beynəlxalq idman ictimaiyyəti üçün növbəti unudulmaz hadisə kimi tarixə qızıl hərflərlə yazıldı. Beynəlxalq tədbirlərin, yarışların keçirildiyi məkana çevrilən paytaxtımız Bakıda islam ölkələrinin atletlərinə bacarıqlarını nümayiş etdirmək, dörd qitədən gəlmiş insanlara birlik və anlaşma ruhunda qarşılıqlı əlaqələr yaratmaq üçün hər cür şərait yaradıldı. İslam Həmrəyliyi İdman Federasiyasının rəhbərliyi də bu oyunları təşkilati baxımdan ən uğurlu İslamiada adlandırdı.

V İslam Həmrəyliyi Oyunlarına həsr olunan mətbuat konfransında Konya Böyükşəhər Bələdiyyəsinin rəhbəri Uğur İbrahim Altay da Azərbaycanın idman yarışları ilə bağlı təcrübəsindən söz açaraq vurğuladı ki, onlar yarışa hazırlaşarkən Bakının uğurlu təcrübəsindən yararlanıblar: "Çalışdıq ki, biz də yarışları və açılış mərasimini əvvəlki kimi yüksək səviyyədə təşkil edək. Ümid edirəm ki, buna nail olmağı bacardıq. İslamiadaya marağın yüksək olması bizi sevindirir. Oyunlarda 56 ölkədən 4 mindən artıq idmançı birincilik uğrunda mübarizə aparıb".

### Azərbaycan oyunları 99 medalla başa vurdu

Azərbaycan bu oyunları 99 medalla bitirib və 56 ölkə arasında 4-cü pillədəki mövqeyini qoruyub. Medallardan 29-u qızıl, 36-sı gümüş, 34-ü bürüncdür.

İlk 3 sırada isə, müvafiq olaraq, Türkiyə - 341 (145-107-89), Özbəkistan - 158 (51-42-65) və İran - 133 (39-44-50) qərarlaşıb. Beşinci yeri Qazaxıstan tutub - 89 (27-23-39).

Ümumilikdə 56 ölkədən 44-ü medal qazana bilib.

Qeyd edək ki, Azərbaycan yığması medallarını 19 növdə - güləş (8 qızıl, 8 gümüş, 7 bürünc), bədii gimnastika (5 qızıl, 2 gümüş, 1 bürünc), cüdo (2 qızıl, 3 gümüş, 2 bürünc), aerobika (2 qızıl, 3 gümüş), qılıncoynatma (2 qızıl, 2 gümüş, 2 bürünc), taekvondo (1 qızıl, 2 gümüş, 2 bürünc), idman gimnastikası (1 qızıl, 2 gümüş, 1 bürünc), atletika (1 qızıl, 2 gümüş), kikboksinq (3 qızıl, 5 gümüş, 7 bürünc), üzgüçülük (1 qızıl, 1 gümüş, 1 bürünc), 3X3 basketbol (1 qızıl, 1 gümüş), stend atıcılığı (1 qızıl, 1 gümüş), ağırlıqqaldırma (1 gümüş, 3 bürünc), həndbol (1 gümüş), karate (1 qızıl, 2 gümüş, 3 bürünc), para-oxatma (2 bürünc), para-stolüstü tennis (1 bürünc), voleybol (1 bürünc) və futbolda (1 bürünc) əldə edib.

Prezidentin söylədiyi kimi, qalib ölkənin idmançıları qəhrəman kimi mübarizə aparıb bayrağımızı ən yüksək kürsülərdə dalğalandırdılar. Döyüş meydanlarında əldə edilmiş qələbə idman yarışlarında da özünü əks etdirdi. Azərbaycan idmançıları İslamiadadan Vətənə zəfərlə qayıtdılar.

### Möhtəşəm bağlanış mərasimi

Türkiyənin Konya şəhərindəki 15 İyul Stadionunda V İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasimi keçirildi. Tədbirdə Türkiyənin gənclər və idman naziri Mehmet Muharrem Kasapoğlu və İslam Həmrəyliyi İdman Federasiyasının (ISSF) prezidenti Abdülaziz bin Türki el Faysal el-Suud iştirak etdilər.

Əvvəlcə Konyanın tarixi, mədəniyyəti və turizm potensialından bəhs edən videoçarx nümayiş olundu, sonra Türkiyənin Dövlət Bayrağı qaldırıldı və Dövlət himni - "İstiqlal Marşı" səsləndirildi. Daha sonra oyunlarda iştirak edən 56 ölkənin bayrağı səhnəyə gətirildi.

Yarışların iştirakçıları, o cümlədən Azərbaycan idmançıları stadiona daxil olaraq paradda iştirak ediblər. Bağlanışda Azərbaycan nümayəndə heyətinin bayraqdarı İslam Həmrəyliyi Oyunlarının üçqat mükafatçısı - basketbol 3x3 milli komandasının üzvü Zaur Paşayev oldu. Daha sonra oyunların könüllüləri səhnəyə dəvət edilərək, onlara təşəkkür ifadə olundu.

Türkiyənin gənclər və idman naziri, Konya-2021-in Hazırlıq və Təşkilat Komitəsinin sədri Mehmet Kasapoğlu çıxış edərək bildirdi ki, bu oyunlarda uduzan olmayıb, qazanan isə birlik-bərabərlik, dostluq-qardaşlıq olub.

Yarışın unudulmaz anlarla yadda qaldığını söyləyən İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti Abdülaziz bin Türki el Faysal el-Suud idmançıları dəstəkləyən hər kəsə, eyni zamanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkür etdi. O, dünyaya "Həmrəylik adımız, sülh dilimiz, idman meydanlarında şərəfli rəqabət isə yolumuzdur" mesajını verən idmançılara minnətdarlığını bildirdi. Sonra V İslam Həmrəyliyi Oyunlarından bəhs edən videoçarx nümayiş etdirildi. Bağlanış mərasimi atəşfəşanlıq və müğənni Kubatın konserti ilə bitdi.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***